# Avropanın daha bir ölkəsi Azərbaycanla əməkdaşlığı genişləndirir

## Sloveniyanın ölkəmizlə iqtisadi əlaqələri təkcə təbii qazla məhdudlaşmayacaq

**Keçən il ölkəmizin iqtisadiyyatında baş verən yeniliklərdən biri də Sloveniyaya Azərbaycan qazının ixracının başlanması oldu. Bunu SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ) avqustun 1-də elan etdi.**



Bununla da Gürcüstan,Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiyadan sonra Sloveniya Azərbaycan qazını alan doqquzuncu ölkə oldu (Xatırladaq ki, Sloveniyanın ardınca Xorvatiya, Şimali Makedoniya və Slovakiya da ölkəmizdən qaz idxal etməyə başladılar. Beləliklə, indi 12 ölkəyə qaz ixrac edirik).

Açıqlanan rəsmi məlumata görə, Sloveniyaya qaz tədarükü hələ iyulun 17-də SOCAR ilə Sloveniyanın təbii qaz bazarındakı ən iri şirkəti olan "Geoplin" arasında qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsinə dair imzalanmış Anlaşma Memorandumu əsasında həyata keçirilir.

SOCAR və "Geoplin" şirkətlərinin enerji tərəfdaşlığının daha da inkişaf etdirilməsi hədəflənib. Belə ki, Lyublyanada Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Boyan Kumer ölkəmizdən qaz almağa başladıqları zaman jurnalistlərə açıqlamasında bildirmişdir ki, Azərbaycan Avropa İttifaqının vacib strateji təchizatçısı kimi Sloveniyaya qaz tədarükünün şaxələndirilməsi üçün əlavə imkan yaradır. "Bunun sayəsində biz sözün həqiqi mənasında Sloveniyanı qarşıdan gələn qış üçün xilas etdik və təhlükəsiz şəkildə təbii qazla təmin etdik", - deyə nazir vurğulamışdır.

Ümumiyyətlə, son dövrdə Azərbaycan-Sloveniya əməkdaşlığı genişlənir və bu, özünü iqtisadi sahədə də bariz şəkildə göstərir. Son bir neçə ilə aid rəqəmlər iki ölkə arasında ticarət dövriyyəsinin də getdikcə artdığını təsdiqləyir.

Əməkdaşlığın genişlənməsini eləcə də ayrı-ayrı sahələri təmsil edən nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən görmək olar. Məsələn, bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Sloveniyanın Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Marko Ştuçinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub. Görüşdə Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Azərbaycan-Sloveniya Birgə İşçi Qrupunun ölkəmiz tərəfindən rəhbəri Anar Kərimov Sloveniya ilə dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verildiyini qeyd edib. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin və davamlı siyasi dialoqun iki ölkə arasında əlaqələrin inkişafında xüsusi əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbət zamanı həmçinin vurğulanıb ki, Azərbaycan-Sloveniya Birgə İşçi Qrupunun fəaliyyəti ikitərəfli əlaqələrin genişlənməsinə xidmət edir. Ölkəmizdə son illər əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlar və əldə olunan nailiyyətlər, dünyanın qabaqcıl təcrübələri sırasına daxil edilən DOST Konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramının uğurları barədə məlumat verilib.

M.Ştuçin Azərbaycana səfərdən məmnunluğunu, ikitərəfli əlaqələri dərinləşdirməkdə maraqlı olduqlarını, sosial sahədə də təcrübə mübadilələrinin aparılmasının qarşılıqlı fayda verə biləcəyini qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlığın gündəliyinə, iqtisadi-ticarət əlaqələrinin, investisiya əməkdaşlığının genişləndirilməsinə, əmək, məşğulluq və sosial müdafiə sahələrində də əlaqələrin inkişaf etdirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

Bu ayın əvvəlində digər bir görüş isə SOCAR-da olub. Şirkətin prezidenti Rövşən Nəcəf Sloveniyanın "Petrol d.d." şirkətinin İdarə Heyətinin sədri Saso Berger və "Geoplin d.o.o." şirkətinin baş icraçı direktoru Simon Urbankl ilə görüşüb. Görüşdə SOCAR-la "Petrol d.d." və "Geoplin d.o.o." şirkətləri arasında mövcud əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Tərəflər enerji sektorunun müxtəlif istiqamətləri üzrə əlaqələrin genişləndirilməsi imkanlarını müzakirə edib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Azərbaycan-Sloveniya əməkdaşlığına və tərəfdaşlığına yeni yollar açan, imkanlar yaradan vasitələrdən biri də məhz bu cür görüşlərin, məsləhətləşmələrin intensivləşməsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-12 fevral (№31).- S.4.